# İgid əsgərimiz Qusarda torpağa tapşırıldı

1994-cü ildə Qusar rayonunun Həzrə kəndində anadan olan Çingiz Qurbanov 2016-cı ildə Azərbaycan Texniki Universitetində təhsil alaraq "Xüsusi texnika və optik nişangahlar" ixtisasına yiyələnmişdi. Ötən ilin iyul ayında düşmənlə təmas xəttində yerləşən hərbi hissəyə hərbi xidmətə göndərilmişdi. Çingiz xidmət etdiyi yarım ildə silah və döyüş texnikalarının sirlərini yüksək səviyyədə mənimsəmiş, hərbi vərdişlərə yetərincə yiyələnmişdi. Çingiz Qurbanov Vətən uğrunda qəhrəmanlığı ilə özünə əbədiyyət yolu seçdi. Bu yol Vətənimizi yaşatmaq üçün xalqımızın igid oğullarının tutduğu yoldur.

Fevralın 6-da şəhid əsgər Çingiz Qurbanovun nəşi dəfn edilməsi üçün doğulduğu Qusar rayonuna yola salındı. Həmin gün Qusar camaatı əllərində üçrəngli bayraqla şəhid övladını qarşılamaq üçün küçələrə çıxmışdı. Onlar bununla Vətən yolunda rəşadət göstərərək qəhrəmancasına həlak olmuş igid əsgərimizə son ehtiramlarını göstərirdilər. Böyük insan izdihamı Qusar rayonunun Şəhidlər xiyabanına axışırdı. Əvvəlcə cənazə namazı qılındı. Sonra şəhid əsgərimiz Müdafiə Nazirliyinin fəxri qarovul bölüyünün açdığı yayılım



atəşi altında dəfn edildi.

Dəfn mərasimində çıxış edən istefada olan polkovnik, əməkdar incəsənət xadimi Abdulla Qurbani bildirdi ki, Qusar rayonu Qarabağ müharibəsində çoxlu şəhid verib. "Bu rayon Sovet İttifaqı Qəhrəmanı Mirzə Vəliyev, general Mahmud Əbilov, Azərbaycanın Milli Qəhrəmanı Fəxrəddin Musayev, nəhayət, şəhid Çingiz Qurbanov kimi Vətənini canlarından artıq sevən oğullar yetirib". Natiq onu da vurğuladı ki, ulu öndər Heydər Əliyev ölkəmizin bütün bölgələrində yaşayan soydaşlarımızın Vətənimizin ərazi bütövlüyü uğrunda düşmənə qarşı apardığı mübarizəni yüksək qiymətləndirib və bu gün də cəmiyyətimizdə şəhidlərə böyük ehtiram göstərilir.

Daha sonra Qusar rayonu İcra Hakimiyyətinin başçısı Şair Alxasov dedi ki, Çingizin qəhrəmanlığı hamımız üçün örnəkdir. "Bir əlimizdə bayraq, bir əlimizdə silah düşmənə qarşı bir olmalıyıq".

Şəhid Çingiz Qurbanovun təhsil aldığı Azərbaycan Texniki Universitetinin "Xüsusi texnika və texnologiya" fakültəsinin dekanı, texnika elmləri namizədi Ramiz Hüseynov sevimli tələbəsi ilə bağlı xatirələrini bölüşdü. Dedi ki, Çingiz Qurbanov əlaçı, həm də intizamlı tələbə olub. Ona magistr təhsilini davam etdirməyi təklif edəndə, öncə hərbi xidmətə getmək istəyini bildirdi. "Əsgərlikdən qayıdandan sonra təhsilimi davam etdirəcəyəm", - dedi. Onun şəhid olması xəbərini eşidəndə inanmaq istəmədim. Çingiz yaxşı mühəndis olacaqdı. Bu gün biz müəllim və tələbələr də şəhid məzunumuzla fəxr edirik.

Həzrə kənd orta məktəbinin direktoru Namiq Novruzov, Qusar rayon Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Canəli Hörmətov və başqaları şəhid əsgər Çingiz Qurbanovun vətənpərvərliyindən, şücaətindən bəhs etdilər.

Sonda çıxış edən şəhidin atası Salman Qurbanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova, övladının nəşinin düşməndən geri alınmasında xidmətləri olan hər kəsə dərin minnətdarlığını bildirdi. Əlavə etdi ki, erməni işğalı altında olan torpaqlarımızı azad etmək üçün döyüşlər başlasa, oğlunun əvəzində cəbhədə düşmənə qarşı döyüşməyə hazırdır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**



